# *ALİ MƏCLİSİN İCLASI*

*28 dekabr 2023-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini* ***Anar İbrahimov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının sonuncu - doqquzuncu iclasına toplaşmışıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında protokolun mənə verdiyi məlumata görə 45 deputatdan 33-ü iştirak edir.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
| İştirak edir | 33 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə ən azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyətinə nəzər salınacaqdır. Məlumat xarakterli məsələdir. Bununla bağlı məlumat verməsi üçün söz Ali Məclis Aparatının rəhbəri Ülvi müəllim Hüseynliyə verilir. Buyurun, Ülvi müəllim.

**Ü.Hüseynli,** *Ali Məclis Aparatının rəhbəri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il fəaliyyəti haqqında məlumatı diqqətinizə çatdırıram.

2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 18 qanun və 17 qərar qəbul edilmişdir.

Qanunlardan 7-si dəyişikliklərlə, 2-si isə ləğvetmə ilə bağlıdır. Bunlar "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun və "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədədir. 6-sı büdcə və onun icrası, 3-ü isə Ali Məclisin işinin təşkili ilə bağlıdır ki, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında olan qanunlardır.

Bu il təsdiq edilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi ilə Ali Məclisin parlamentar funksiyaları bərpa olunmuş, qanunların qəbulu proseduru Azərbaycan Respublikası qanunvericiliyinə uyğunlaşdırılmışdır.

Qəbul edilən qərarlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatlarının və mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin vəzifəyə təyini və vəzifədən azad olunmalarının təsdiqi, Ali Məclis deputatlarının əməkhaqlarının müəyyən edilməsi, digərləri isə Ali Məclisin işinin təşkili ilə bağlı olmuşdur.

2023-cü ildə 80 fərman və 168 sərəncam imzalanmışdır. Həmin fərman və sərəncamlarla 86 hüquqi akt (43 fərman və 43 sərəncam, o cümlədən 10 dövlət proqramı) ləğv edilmiş, 109 hüquqi aktda (68 fərman və 41 sərəncamda) dəyişikliklər edilmiş, 17 dövlət orqanının əsasnamə və ya nizamnaməsi yenidən təsdiq edilmiş və ya dəyişdirilmiş, 8 dövlət qurumu və rayon (şəhər) dövlət mətbuat orqanları ləğv edilmiş, 4 yeni dövlət orqanı yaradılmışdır.

Əsasnaməsində dəyişiklik edilən dövlət orqanları Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Agentliyi, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Verilişləri QSC, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi, Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti olmuşdur.

Ləğv edilən dövlət qurumları Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti, Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi, 1 şəhər və 7 rayon mətbuat orqanı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Elmin İnkişafı Fondu, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası və Naxçıvan Muxtar Respublikası Medianın İnkişafı Agentliyi olmuşdur.

Yeni yaradılmış dövlət orqanları isə Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsi, "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsi və Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi olmuşdur.

2023-cü il ərzində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 172-si ərizə, 147-si şikayət, 10-u təklif olmaqla, ümumilikdə, 329 müraciət daxil olmuş və baxılmışdır. Daxil olan müraciətlərin 237-si elektron, 85-i yazılı məktub, 7-si isə teleqram formasında olmuşdur. Onlardan 30-u Bakı, 111-i Naxçıvan şəhərlərindən, 42-si Şərur, 33-ü Babək, 8-i Ordubad, 35-i Culfa, 15-i Kəngərli, 29-u Şahbuz, 9-u Sədərək və 17-si isə ölkənin digər rayonlarından daxil olmuşdur.

Qeyd olunan müraciətlərdən 121-i və ya 37 faizi əmək hüquqlarının pozulması və ya işlə təminat, 64-ü və ya 20 faizi mülkiyyət hüquqlarının pozulması, 54-ü və ya 16 faizi sosial təminat, 14-ü və ya 4 faizi içməli və suvarma suyu ilə təminat, 14-ü və ya 4 faizi təhsil sahəsi, 8-i və ya 3 faizi mənzil təminatı, 11-i və ya 3 faizi tibbi xidmətlə təminat, 43-ü və ya 13 faizi isə digər məsələlərlə bağlı olmuşdur ki, bunlar da aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Aparatında araşdırılmış, təhlil olunmuş, vətəndaşların qəbulları keçirilmiş, onlara yazılı və ya şifahi məlumatlar verilmişdir.

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

2023-cü il ərzində Ali Məclisin fəaliyyəti haqqında qısa məlumat bundan ibarətdir.

**Sədrlik edən.** Deputatlardan Ülvi müəllimə sualı olan yoxdur?

Yoxdur.

Buyurun, Ülvi müəllim, əyləşin.

Hörmətli deputatlar!

Ülvi müəllimin də geniş məlumatından aydın oldu ki, Ali Məclis həm qanunvericilik sahəsində, həm də vətəndaşların müraciətlərinə baxılması işində il ərzində səmərəli fəaliyyət göstərmişdir. Qeyd etdiyiniz kimi, Ali Məclisə daxil olan müraciətlərin ən çoxu əmək hüquqlarının pozulması, qanunun aliliyinin təmin edilməsi, əsasən mülkiyyətlə bağlı

məsələlər, sosial təminat və burada da dəfələrlə səsləndirilən əsas problemlər kimi su problemi ilə bağlı idi ki, bunları sosial hesablarımızdan da paylaşırıq. Ali Məclisin üzvləri gələcək fəaliyyətlərində bu istiqamətləri diqqət mərkəzində saxlayacaqlar. Ali Məclis üzvlərinin diqqətinə əlavə olaraq bir məsələni də çatdırmaq istəyirəm ki, geridə qoyduğumuz ildə əvvəllər muxtar respublikada bu sahəni tənzimləməyən, bilavasitə Ali Məclisin fəaliyyəti ilə bağlı olan 3 yeni qanun layihəsi Ali Məclis tərəfindən qəbul edilmişdir. Bu da qanunvericilik fəaliyyətimizin genişləndirilməsi deməkdir. Bu məlumatlar hamınızda var və Aparatdan xahiş edəcəyəm ki, rüb ərzində də bu məlumatlar sizə verilsin ki, öz işinizdə istifadə edəsiniz.

Gündəliyə cari məsələlərin müzakirəsi salınmışdır. Əvvəlki iclasda da deputat həmkarlarıma söz vermişdim ki, vaxt məhdudiyyətinə görə cari məsələlərin müzakirəsini bugünkü iclasa salaq. Mənə verilən məlumata görə deputatlar artıq cari məsələlərlə bağlı söz demək istəyirlər. Ardıcıllıqla deputat həmkarlarımı cari məsələlərin müzakirəsinə dəvət edirəm və xahiş edirəm ki, reqlamenti nəzərə alaq. Hesab edirəm ki, cari məsələlərin təqdim edilməsi üçün deputatlarımıza 5 dəqiqə vaxt ayrılması yetərlidir. Etiraz etmirsinizsə bu cür davam edək.

İlk olaraq çıxış üçün söz 22 saylı Şıxmahmud seçki dairəsindən deputat Turan xanım Məmmədliyə verilir. Buyurun, Turan xanım.

**T.Məmmədli.** Hörmətli Anar müəllim! Hörmətli həmkarlar!

Hər birinizi salamlayıram, qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbrik edirəm.

2024-cü ildə İlham Əliyev cənablarının yenidən ölkə Prezidenti seçilməsini, Naxçıvan Muxtar Respublikasının 100 illiyini və Zəngəzur dəhlizinin açılmasını qeyd edərik. Bu işlərdə hər birimizə uğurlar arzulayıram.

Qeyd etmək istəyirəm ki, 19 dekabr 2023-cü il tarixdə çıxış etdiyim zaman bildirdiyim fikirlərin bir qismini hörmətli Baş nazirimiz Səbuhi Məmmədov cavablandırdı. Lakin Uzunoba ərazisində olan Cəhri qəsəbə Polis Bölməsinə verilən artezianın Uzunoba gölündən çəkiləcək su ilə əvəzlənməsi və Nəzərabad və Didivar kəndləri ərazisinə gələn suyun digər tərəfdən Uzunobadan olan iki kəndin sərhədində yerləşən artezianın içməli su kimi Didivar əhalisinə çatdırılması haqqında heç bir fikir bildirmədi.

Bu gün vətəndaşların müraciət etdiyi məsələlərdən biri tikinti ilə əlaqədardır. Bildirirəm ki, Uzunoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün nəzərdə tutulmuş inzibati binada təqribən 12 nəfər işləyir. Həmin binada sanitar qovşaq yoxdur, həmçinin Məmmədrza Dizə kəndində də belədir. Orada çalışanların belə bir müraciəti oldu ki, əksəriyyəti qonşu kəndlərdən gəlib orada işləyirlər, müxtəlif ehtiyacların ödənilməsi üçün çox əziyyət çəkirlər.

Nəzərabad kənd sakini Əliyev Asif Mütəllim oğlu aktiv fermerdir, 27 hektar şəxsi torpaq sahəsi var. Onun müəyyən hissəsində hər il əkin aparır. Lakin fermer kimi nəzərdə tutulmuş stimullaşdırıcı tədbirlərdən istifadə edə bilmədiyini qeyd etdi. Fermer sahələrinin bir hissəsinin suvarılması üçün öz vəsaiti hesabına tikdiyi artezian quyusundan istifadə edir. Bəzi sahələri isə növbəli suvarma suyu ilə suvarır. Vətəndaşın sualı ondan ibarətdir ki, bu növbəli suvarmada fermer kimi üstünlüyü qorunmalıdırmı? Yəni suvarma adətən növbəli olur, o da fermer olduğu üçün böyük ərazilərinə görə ona növbədənkənar su verilməlidirmi? Əsasən də taxıl əkini ilə məşğul olur.

Deyəcəklərim bu qədər, diqqətiniz üçün minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Turan xanım. Xahiş edəcəyəm ki, qaldırdığınız məsələ hökumətə yönləndirilsin.

İkinci çıxışa yazılan deputatımız 23 saylı Cəhri seçki dairəsindən Hacıfəxrəddin Səfərlidir. Buyurun.

**H.Səfərli.** Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Təmsil etdiyim 23 saylı Cəhri seçki dairəsi 3 kəndi - Aşağı Buzqov, Yuxarı Buzqov, Gərməçataq kəndlərini və Cəhri qəsəbəsini əhatə edir. Müstəqillik illərində bu yaşayış məskənləri müəyyən inkişaf yolu keçmişdir. Təkcə bu il Cəhri qəsəbəsinin mərkəzindən keçən yola Gülşənabad kəndinə qədər asfalt örtük salınmışdır. Az da olsa bəzi məhəllə yolları da asfaltlanmış, abadlaşdırılmışdır. Həmçinin Cəhri - Buzqov yolundan Gərməçataq kəndinə çəkilmiş yeni yolun asfaltlanması başa çatmaq üzrədir. Ancaq deputat seçildiyim bu qəsəbə və kəndlər problemlərdən də kənar deyildir. Həmin problemlərin bir hissəsini diqqətinizə çatdırmaq istərdim.

2007-ci ildə istifadəyə verilmiş Cəhri qəsəbə 2 saylı tam orta məktəbinin binasının cənub hissəsi hazırda qəzalı vəziyyətə düşmüş, divarlarda çatlar yaranmışdır. Vaxtında tədbir görülməsə bədbəxt hadisə baş verə bilər. Məktəbin dam örtüyü yayda təmir olunsa da su damır. 45 müəllimi, 348 şagirdi olan məktəbin bufeti yoxdur. Məktəbdə kənardan gələn 7 müəllim çalışır. Ümumiyyətlə müəllim və şagirdlərin fasilə vaxtı çay içməsi və ya nahar etməsi üçün heç bir şərait yoxdur. Məktəbin su təchizatı pis vəziyyətdə olduğu üçün sanitar qovşaqları işləmir. Xahiş edirəm ki, bu çatışmazlıqların aradan qaldırılması üçün hökumət tərəfindən tədbirlər həyata keçirilsin.

2021-ci ilin dekabrında istifadəyə verilən Cəhri qəsəbə məscidinin dam örtüyü yararsız olduğu üçün su damır. Belə getsə hazırda cüzi xərclə aradan qaldırılması mümkün olan bu problem gələcəkdə daha böyük vəsait tələb edəcəkdir.

Cəhri qəsəbəsinin içməli və suvarma suyu ilə təchizatı çox pisdir. Hətta bəzi məhəllələrdə, xüsusilə qəsəbənin cənub hissəsində su xətti belə çəkilməmişdir. Əhali içməli suyu maşınlarla uzaqdan gətirirlər.

Həmçinin qəsəbədə işsizlik problemi vardır. Bu da əhalinin başqa yerlərə getməsinə səbəb olur. Fikrimcə, insanların bir hissəsinin işlə təmin olunması üçün qəsəbədə hər hansı istehsal müəssisəsi yaratmaq olar, məsələn, trikotaj fabrikinin filialının açılması problemin həllinə müəyyən qədər kömək edə bilər. Muxtar respublikanın, o cümlədən Cəhri qəsəbəsinin əhalisi qədim zamanlardan barama yetişdirməklə məşğul olmuşdur. Bir vaxtlar Naxçıvan ipəyi bütün dünyada məşhur idi. Təxminən 40 gün müddətində başa çatan baramaçılığı bərpa etmək muxtar respublika əhalisinin ailə büdcəsinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

Təmsil etdiyim Gərməçataq, Aşağı Buzqov və Yuxarı Buzqov kəndləri Ermənistanla sərhəddə yerləşirlər. İşsizliklə əlaqədar bu kəndlərin əhalisi yaşayış yerlərini tərk edərək başqa yerlərə, xüsusilə Bakı şəhərinə köçürlər. Bu hal isə gələcəkdə həmin yaşayış məskənlərinin xəritədən silinməsinə səbəb ola bilər. Bakı şəhərinə köçmüş bir neçə ailə son illərdə geri qayıtsa da, onlar işsizlik səbəbindən dolana bilmirlər. Uşaq azlığı səbəbindən Gərməçataq və Yuxarı Buzqov kənd tam orta məktəblərində dərslər və ştatlar xeyli azalmışdır. Bu cür halların qarşısını almaq üçün dağ kəndlərində mütləq iş yerləri açılmalıdır.

Yuxarı Buzqov kəndində məktəb tikintisi ilə əlaqədar bəzi vətəndaşların çoxillik qoz ağacları kəsilmiş, təsərrüfat binaları sökülmüşdür. Ancaq onlara heç bir konpensasiya verilməmişdir. Həmin vətəndaşlar onlara dəymiş zərərin ödənilməsini xahiş edir.

Gərməçataq, Aşağı Buzqov və Yuxarı Buzqov kəndləri sərhəddə yerləşdikləri üçün bu kəndlərin əhalisi erməni təcavüzündən daha çox zərər çəkmişdir. 1988-ci ildən etibarən bu kəndlər müntəzəm olaraq atəşə məruz qalmış, hətta Gərməçataq kəndində bir neçə ev ermənilər tərəfindən yandırılmışdır. Bu kəndlərin əhalisi digər kəndlərdən gələn könüllülərin köməyi ilə yaşayış məskənlərini işğaldan qorumuşlar. Ancaq bu kəndlərin əhalisindən müdafiədə iştirak edənlərin bir hissəsi veteranlıq statusu alsa da, bəziləri ala bilməmişdir. Həmin şəxslər onlara da veteranlıq statusunun verilməsini xahiş edirlər.

Qlobal istiləşmə, uzunmüddətli quraqlıqlar muxtar respublikanın digər yaşayış məskənlərində olduğu kimi, hətta muxtar respublikanın ən şimal qurtaracağında yerləşən Gərməçataq, Aşağı Buzqov və Yuxarı Buzqov kəndlərində də su ilə əlaqədar problemlər yaratmışdır. Əhali bunun həlli yolunu artezian quyularının qazılmasında görür. Aşağı Buzqov

kəndinin əhalisi kəndin ortasından, ancaq yaşayış məskənindən xeyli aşağı səviyyədən axan Cəhri çayının suyunu suvarma məqsədi ilə yaşayış məskəninə qaldırmaq üçün nasos qoyulmasını xahiş edir.

Şübhəsiz ki, qeyd olunan problemlərin hamısını qısa müddətdə aradan qaldırmaq mümkün deyildir. Ona görə də muxtar respublika hökumətindən qeyd olunan bu problemlərin tədricən həll edilməsi üçün tədbirlər görülməsini xahiş edirəm.

Sonda hamınızı qarşıdan gələn bayramlar münasibətilə təbrik edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Hacıfəxrəddin müəllim. Növbəti çıxış üçün söz 27 saylı Naxçıvan şəhər seçki dairəsindən seçilmiş deputatımız Yazgül xanım Rzayevaya verilir. Buyurun, Yazgül xanım.

**Y.Rzayeva.** Hörmətli Anar müəllim, hörmətli deputatlar və sessiya iştirakçıları!

27 saylı Naxçıvan şəhər seçki dairəsindən deputat seçilmişəm. Seçicilərlə görüşlərim olub və seçicilərin problemləri ilə əlaqədar bir məsələni səsləndirmək istəyirəm.

Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində, eyni zamanda Naxçıvan şəhərində gedən islahatlar, muxtar respublika əhalisinin artımı, təhsil müəssisələrinin və tələbələrin sayının artması göz qabağındadır. Bu, çox sevindirici haldır. Belə ki, tələbələrin böyük bir faizinin təhsil müəssisələrinə gediş-gəlişi ictimai nəqliyyat vasitəsilədir. Çox təəssüf hissi ilə deyə bilərəm ki, bu marşrutların bəziləri, kiçik sahibkarlara məxsus fərdi avtobusların gediş-gəlişi qənaətbəxşedici deyil. Bunlar şəhər içində 1,7,9 nömrəli avtobuslardır. Həm sıxlıq baxımından, həm də təhlükə baxımından əlverişsizdir. Aydındır ki, bu avtobuslar ayrı-ayrı sahibkarlara məxsusdur. Onların ailə dolanışığına bir dəstəkdir. Lakin əhalinin və tələbələrin çoxluğunu nəzərə alaraq, bu avtobusların böyük avtobuslarla əvəz olunması yaxşı olardı. Nəzərə alsaq ki, Naxçıvan şəhərinin ilkin marşrutu dəmiryolu vağzalından, Qaraçuq-Qaraxanbəy dairəsindən hərbi şəhərciyə qədər olub. Bu gün bu marşrut üzrə avtobus yoxdur. Düşünsək ki, göstərdiyimiz ərazilərdə bir çox yeni iş yerləri açılmışdır. Bu marşrutun olması o müəssisələrdə işləyənlərin də gediş-gəlişinə kömək ola bilər.

Naxçıvan şəhəri, Zərifə Əliyeva küçəsində əhalinin narazılığı həmin ünvanlarda marşrutun olmaması ilə yanaşı, o ərazidə vaxtilə fəaliyyət göstərən uşaq baxçasının yerində bir sıra idarə və müəssisələrin tikilməsidir. Belə ki, həmin ərazidə peşə məktəbi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Torpaq və Xəritəçəkmə İdarəsi, İnzibati Məhkəmə və s. idarələr salınıbdır. O ərazidə işləyən qadınlar körpə uşaqlarını uyğun bağçalara aparmaq üçün, qənaətbəxş olmayan marşrutdan istifadə etmək məcburiyyətindədir. Bu da uşaqların sağlamlığı və sanitar gigiyenik baxımından, xüsusilə bir sıra uşaq infeksiyalarının - qızılca, suçiçəyi kimi xəstəliklərin yayıldığı bir vaxtda çox təhlükəlidir. Yaxşı olardı ki, həmin ünvanlarda yaşayan əhali üçün yenidən uşaq bağçası bərpa olunsun və istifadəyə verilsin.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Növbəti çıxış üçün söz 26 saylı Naxçıvan şəhər seçki dairəsindən seçilmiş Elman Cəfərliyə verilir. Buyurun, Elman müəllim.

**E.Cəfərli,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar və sessiya iştirakçıları!

Biz son iclaslarda, demək olar ki, hər dəfə şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı məsələlərə toxunuruq. Qeyd edim ki, bu məsələ yalnız şəhid ailə üzvlərinin arzusu deyil, eyni zamanda bizim qədirbilən xalqımızın da milli-mənəvi dəyərlər müstəvisində öz şəhidlərinə verdiyi qiymətdən doğan məsuliyyət hissidir. Buna da toxunmaq istəyirəm ki, bəlkə də çox vaxt dərindən fərqinə varmırıq, amma 2020-ci ildə 44 günlük Vətən müharibəsində, ermənilərin 2022-ci il sentyabr təxribatının qarşısının alınmasında və 2023-cü il sentyabrın 19-20-də bir günlük lokal antiterror əməliyyatlarında iştirak edən və canını ölkəmizin ərazi

bütövlüyü, ərazilərimiz üzərində tam suverenliyi və Konstitusiya quruluşunun bərqərar olması naminə fəda edən şəhidlərimizin hamısı üçün 2010-cu ildə müstəsna fərdi igidlik nümunəsi göstərmiş Mübariz İbrahimov, 2020-ci ilin iyulundakı erməni təxribatı zamanı həlak olmuş general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər qəhrəman Azərbaycan hərbçilərinin adı ilə bağlı olan qəhrəmanlıq etalonu var idi. Bu baxımdan mən hörmətli Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2019-cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubiley mərasimində etdiyi çıxış zamanı gənc nəslin tərbiyəsi məsələsini, o cümlədən gənclərin yaxşı oxumalarının, tariximizi yaxşı bilmələrinin zəruriliyini xüsusilə qeyd etdiyini xatırlatmaq istərdim. Cənab Prezident gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi məsələsini önə çəkirdi, ideoloji işi yenidən müstəvinin ön hissəsinə qoymağı zəruri hesab edirdi. Beləliklə, dövlət başçısının müharibədən əvvəlki çıxışlarında da sonrakı çıxışlarda olduğu kimi vətənpərvərlik tərbiyəsinə çox böyük əhəmiyyət verdiyinin şahidi oluruq. Ona görə də düşünürəm ki, gənc nəslin, xüsusilə gələcək nəsillərin milli ruhda tərbiyə olunması üçün şəhidlərimizin şəxsi qəhrəmanlıq nümunəsi ən gözəl əyani vasitədir. Bu baxımdan hesab edirəm ki, şəhidlərin xatirələrinin əbədiləşdirilməsinin həm artıq ölkəmizdə qanunvericiliyin tələblərinə uyğun şəkildə mövcud olan təcrübəsinin davam etdirilməsi, həm də yeni əbədiləşdirilmə formalarının müəyyənləşdirilməsi təqdirəlayiq olardı. Bu mənada müəyyən təkliflərlə çıxış etməzdən əvvəl şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulan müddəaları qısaca xatırlatmaq istərdim.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 1993-cü il sentyabrın 3-də imzalanan "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsi müvafiq məsələnin həllini nəzərdə tutur. Həmin maddəyə görə şəhid statusu almış şəxslərin xatirəsini əbədiləşdirmək məqsədilə aşağıdakı tədbirlər həyata keçirilir:

– qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması;
– şəhid adlarının küçələrə, meydanlara, müəssisələrə, təşkilatlara, idarələrə, məktəblərə, mədəni-maarif ocaqlarına verilməsi.

Bu Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti 1994-cü il yanvarın 15-də "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında 10 №-li Qərar qəbul etmişdir. Həmin qərarın 3-cü maddəsinə görə şəhid adını əbədiləşdirmək məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları aşağıdakı tədbirləri həyata keçirirlər:

1. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan şəhidlərin büstlərini qoyurlar;

2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunan şəhid adlarını küçələrə, meydanlara verirlər, təşkilatlara, müəssisələrə, hərbi və mülki gəmilərə verilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırırlar;

3. "Şəhid" Memorial kompleksini yaradırlar;

Muxtar respublikamızda bu işə başlanıldı. İlk olaraq Babək rayonunda müvafiq abidə kompleksi yaradıldı.

4. Vətən uğrunda göstərilən qəhrəmanlıqla bağlı döyüş yerlərinin, habelə dəfn yerlərinin qorunması və abadlaşdırılması, qəbirüstü daşların, xatirə abidələrinin qorunmasını təşkil edirlər;

5. Döyüş əməliyyatları getmiş yerlərdə xatirə nişanları qoyurlar;

6. Qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirirlər.

Qanuna nisbətən Nazirlər Kabineti tətbiq qaydalarını müəyyənləşdirərkən digər tədbirləri həyata keçirirlər adı ilə burada əslində şəhid adlarının daha da geniş şəkildə əbədiləşdirilməsi üçün imkan yaradıb. Buna görə də düşünürəm ki, şəhidlərin xatirələrinin əbədiləşdirilməsi ilə bağlı tədbirləri bir qədər də genişləndirmək olar. Bu baxımdan beynəlxalq

təcrübəni də öyrənməyə cəhd göstərdim və açıq aydın oldu ki, şəhidlərə bu qədər hörmət və ehtiram əslində bütün dünyada yalnız iki ölkədə mövcuddur. Orta Asiya türk dövlətlərinin təcrübəsinə çox rast gəlmədim, çünki orada bizim kimi problemlər yaşanmayıb. Amma bilirsiniz ki, qardaş Türkiyədə 40 ildən artıqdır ki, terrora qarşı mübarizə aparır, 40 mindən artıq da şəhid verib və Türkiyədə bu məsələ çox geniş yayılıb. Ümumiyyətlə dünya miqyasında islam ölkələrində şəhid adıyla bağlı müəyyən ciddi tendensiyalar var. Amma islam ölkələrinin çox böyük əksəriyyəti bunu dini zəmində qiymətləndirdikləri üçün Azərbaycan və Türkiyə təcrübəsi burada daha önə çıxır. Əminəm ki, Türkiyəyə səfər etmiş bizim deputat yoldaşların hamısı Türkiyə təcrübəsi ilə əyani şəkildə tanış olublar. Məsələn, son səfərimdə çox adi heç bir xüsusi görkəmi olmayan bir yerdə balaca bulaq tikilmişdi və "şəhid albay filankəsin xatirəsinə bulaq" adı qoyulmuşdu. Həmin bulaqdan istifadə edən hər kəs həmin şəhidi bir daha anmış olur. Bizdə də bu təcrübə tətbiq oluna bilər. Bundan başqa yol kənarlarında Türkiyənin bütün ərazisi boyu kiçik yaşıllıqlar, meşəliklər salınır və hansısa şəhidin xatirəsinə verilir. Düşünürəm ki, gələcəkdə kütləvi iməcliklər keçiriləndə bu məsələ nəzərə alına bilər və ayrı-ayrı kəndlərin yaxınlığında, hətta bugünə qədər də iməcliklər nəticəsində salınmış müxtəlif yaşıllıqlara da şəhidlərin adının verilməsi həm yerində olar, həm də qeyd etdiyim kimi bu cür məsələlərin hesabına şəhid adlarının əbədiləşdirilməsi maraqlı olar. Ona görə də təkliflərimi konkretləşdirərək aşağıdakı istiqamətlərdə təklifləri irəli sürmək istəyirəm:

1. Şəhidlərin oxuduğu orta, orta ixtisas və ali təhsil müəssisələrində ayrı-ayrı kabinələrin, məsələn, ali məktəblərdə bu yayılıb, ayrı-ayrı kabinələr tanınmış elm xadimlərinin və həmin o universitetin müəllimi olmuş insanların adına verilir, amma orta məktəblərdə bilirik ki, hamısında hərbi kabinələr var və hərbi kabinələr heç kəsin adını daşımır. Güman edirəm ki, elə hərbi kabinədən başlayıb, əgər hər hansısa kənddə bir neçə şəhid varsa şəhidin daha çox maraq göstərdiyi fənnə uyğun olaraq coğrafiya kabinəsinin, biologiya kabinəsinin və elə kəndin tək şəhidi varsa hərbi kabinənin də həmin şəhidin adı ilə adlandırılması məncə təqdirəlayiq olar;

2. Şəhərlərdə, konkret halda, bu, Türkiyə təcrübəsində də var, böyük şəhərlərdə yerüstü keçidlərin altından keçirsən və baxırsan ki, keçidin üzərində "şəhid filankəs adına yerüstü keçid", belə bir təcrübə var. Bizdə də şəhərdə iki yerüstü keçid var və gələcəkdə güman edirəm ki, hətta şəhərdə bəzi yerlərdə də buna ehtiyac var, əgər müvafiq keçidlər tikilərsə yerüstü və hətta yeraltı keçidlərə şəhid adlarının verilməsi təqdirəlayiq olar və həmin keçidlərdə də şəhid haqqında balaca bir lövhə vurub müəyyən məlumatı paylaşmaq olar.

3. Yaxşı olar ki, ayrı-ayrı yerlərdə, xüsusən suyun bol olduğu yerlərdə, təbii bulaqların və ya onların yaxınlığında, o cümlədən magistral yolların kənarlarında, təbii ki, mümkün olan yerlərdə şəhidlərin adlarına bulaq-abidələr salınması işi sistemli şəkildə davam etdirilsin;

4. Bir neçə iclasdır ki, su problemini qaldırırıq və adətən kəhrizlərin suyundan istifadə məsələsini qabardırıq. Təklifimin biri də budur ki, təbii su mənbəyi olan, qurumamış, bolsulu kəhrizlərə (əgər hansısa tarixi adı yoxdursa həmin kəhrizin) şəhidlərin adının verilməsi də mümkün ola bilər;

5. Yol kənarlarında salınan yaşıllıqların şəhid adları ilə adlandırılması və ya bunun üçün ayrıca aksiyalar keçirilərək yaşıllıq sahələrinin yaradılması və şəhid adları ilə adlandırılması da məqsədəmüvafiq ola bilər.

Əlbəttə bu təkliflərin sayını artırmaq da olar. Bunun üçün təklif edirəm ki, digər deputatların da fərqli təklifləri varsa, onları ümumiləşdirək və lazım gələrsə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli Qərarında, yaxud da 3 sentyabr 1993-cü il tarixli Azərbaycan Respublikasının 697 №-li Qanununda dəyişikliklər edilməsi üçün qanunvericilik təşəbbüsü ilə çıxış edə bilərik.

Burada bir məsələyə də toxunmaq istəyirəm. Düzdür, daha çox şəhid adlarının əbədiləşdirilməsindən danışmaq istəyirdim, amma bəllidir ki, ölkəmiz böyük bir siyasi aksiya qarşısındadır, biz gələn il fevralın 7-də Prezident seçkiləri keçirəcəyik. Bu, şərti olaraq

Azərbaycan cəmiyyətində Zəfər seçkisi də adlanır. Çünki ilk dəfə 1991-ci ildə müstəqilliyimizi elan etdikdən sonra Azərbaycanın bütün ərazisi üzrə biz dövlət başçımızı seçəcəyik və bilirsiniz ki, Yeni Azərbaycan Partiyası tərəfindən İlham Əliyevin, möhtərəm Prezidentimizin Yeni Azərbaycan Partiyası sədrinin namizədliyi növbəti dəfə irəli sürülüb, imza toplama kompaniyası başa çatdırılıb və imzalar Mərkəzi Seçki Komissiyasına təqdim olunub. Əminik ki, cənab Prezidentin namizədliyi tezliklə qeydə alınacaq. Mən fürsətdən istifadə edib bu seçki kompaniyasında bütün deputat yoldaşlarımı fəal olmağa çağırıram. Qarşıda duran məqsəd bu gün aydındır ki, cənab Prezidentin onsuz da ölkədə kifayət qədər həmişə yüksək olan nüfuzu Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra özünün kuliminasiya nöqtəsindədir. Şübhəsizdir ki, seçkinin favoriti Yeni Azərbaycan Partiyasının sədridir. İlk vəzifəmiz yalnız özümüzün yox, bütün ailə üzvlərimizin, ətrafımızın, hatta mümkün qədər seçicilərimizin seçkiyə gəlməsini təmin etməkdir. 2018-ci il keçirilən prezident seçkilərində Naxçıvan Muxtar Respublikasında 81-84 faiz arasında müxtəlif rayonlarda və şəhərdə seçici fəallığı olub. Zəfərdən sonra öz nüfuzunun yüksək nöqtəsində olan Prezidentimizin yenidən seçilməsi şəraitində imkan verməyək ki, o faiz dərəcələri aşağı düşsün. Adətən tənbəllik müxalif seçicilərdə olmur. Onlar seçkiyə daha çox bizim namizədin-iqtidar namizədinin əleyhinə səs vermək üçün fəal şəkildə gəlirlər, bəzi qruplar hətta təxribat törətmək üçün gəlirlər. İqtidaryönlü seçicilər isə “onsuz da cənab İlham Əliyev seçiləcək”, deyib bəzən evdən çıxmağı özlərinə rəva bilmirlər. Ona görə də bütün deputatlardan xahiş edirəm özlərinin nüfuzlarından istifadə edib təmsil etdikləri dairələrdə seçkiyə qədər seçicilərin mütləq şəkildə seçkiyə gəlmələrini təşviq etsinlər. Birinci vətəndaşlıq borcumuzdur, ikincisi ölkənin ərazi bütövlüyünü bərpa etmiş cənab İlham Əliyevin qarşısında qədirbilənlik borcumuzdur. Bizim seçkidə aktivliyimiz məhz onun qələbəsini təmin etmək qədər əhəmiyyətlidir və bu qələbə də bu aktivlikdən başlayacaqdır.

Çıxışımın sonunda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Anar müəllim sizi və sizin rəhbərliyiniz altında bütün Ali Məclisin həm deputatlarını, həm də Aparat əməkdaşlarını təbrik edirəm, gələn ildə hamınıza möhkəm can sağlığı, işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Şəhid adlarının əbədiləşdirilməsi haqqında sizin təkliflərinizlə bağlı bir fikri demək istəyirəm. Deputat həmkarlarım etiraz etmirlərsə bunu səsə qoymadan iş qaydasında həll edə bilərik. Hesab edirəm ki, Elman müəllimin təklifləri məntiqlidir. Burada tək Elman müəllim yox, digər deputatlar da bu məsələnin ayrı-ayrı aspektlərini səsləndirmişdilər. Əgər etiraz etmirsinizsə belə bir təklif etmək istəyirəm ki, bu məsələ Ali Məclisin Humanitar siyasət komitəsində araşdırılsın və növbəti yaz sessiyamızda bununla bağlı bir məlumat verilsin, lazım olarsa sonrakı addımlar atılsın. Deputat həmkarlarımdan da bu məsələdə fəal iştirak etmələrini xahiş edirəm, çünki hamını narahat edən bir məsələdir. Əgər bizim də uyğun və əsaslandırılmış tövsiyələrimiz olarsa, təbii ki, onu həm hökumətə, həm də aidiyyəti qurumlara yönləndirəcəyik. Çox sağ olun, Elman müəllim.

Növbəti çıxış üçün söz 5 saylı Alışar seçki dairəsindən deputat seçilən Əmir Babayevə verilir. Buyurun.

**Ə.Babayev.** Hörmətli Anar müəllim, hörmətli həmkarlar.

Əvvəlki iclasların birində qeyd etdim ki, rayonumuzda su problemi həmişə olubdur, bu gün də davam edir və bu problemin həll olunması üçün hökumətimiz artıq müəyyən tədbirlər hazırlayır. Amma bir məsələyə diqqəti cəlb etmək istəyirəm ki, mənim seçildiyim 5 saylı Alışar seçki dairəsini əhatə edən kəndlərimizdə su problemi xüsusilə çətin bir vəziyyətdədir. Bu mənada ki, bu kəndlər Araz ətrafı kəndlər sayılır və əsas su mənbəyimiz olan Arpaçay su dəryaçasından həmin kəndlərdə istifadə olunmasına şərait yarada bilmirik. İnsanların gümanı ancaq subartezian quyularına və Araz çayından nasoslar vasitəsilə vurulan suyadır. Amma bu sahədə problemlər var. İlk növbədə, Araz çayına qoyulmuş o nasoslarla su müəyyən vaxt ərzində verilir. Çox vaxt insanların çoxu bundan istifadə edir, bəziləri istifadə edə bilmir, çətinlik yaranır. Eyni zamanda Arpaçaydan çəkilən hissədə isə demək olar ki, yay dövründə

su olmur. O kəndlərə su çatmır. Bu, çox böyük problem yaradır. Ona görə də həmin kəndlərin sakinləri məndən xahiş edirlər, dəfələrə bu məsələ qaldırılıbdır, bir daha mən bunu xatırlatmaq istəyirəm, subartezian quyularına böyük ehtiyac var. O kəndlərin bəzilərində o quyular var. Amma onların bir qrupu işlək vəziyyətdə deyil. Bəzilərinin motoru yoxdur, bəziləri elektrik şəbəkəsinə qoşulmayıbdır, bu cür problemlər var. Xatırlatmaq istəyirəm ki, artıq yanvar ayı çatıbdır, yağıntı demək olar ki, yoxdur, bizim də su ehtiyatlarımız əsasən bu yağıntı ilə bağlıdır. Ona görə də, indidən o kəndlərin suya olan tələbatını ödəmək üçün o kəndlərdə bir neçə subartezian quyusunun qazılmasına ehtiyac var və bu məsələ həll olunarsa həmin kənd sakinlərini razı sala bilərik.

Eyni zamanda keçən iclasda da bunu qeyd etmişdim, yenidən qeyd etmək istəyirəm ki, Şərur rayonunda Şərur şəhəri daxil olmaqla və onun ətrafındakı yaşayış məntəqələrində su-kanalizasiya sisteminin çəkilməsinə böyük tələbat var idi. Bu məsələ Şərur şəhərində həll olundu. Bunu hökumətin rəhbəri Səbuhi müəllim də qeyd etdi ki, Şərur şəhərində bu məsələ həll olunub. Amma mən orada qeyd etmişdim ki, bu məsələ şəhər ətrafındakı məntəqələrdə həll olunmadı. Məsələ burasındadır ki, o ərazilərdə xətlər çəkildi, xəritələr, kanalizasiya xəttinin keçəcəyi yerlər müəyyənləşdirildi, amma nədənsə iş tamamilə dayandırıldı. Bu gün də heç bir iş aparılmır. Həmin kəndin sakinləri də narahatdır. Belə ki, onlar fərdi qaydada öz həyətində kanalizasiya sularının axıdılması üçün quyular qazır, bu quyular isə ərazidə müəyyən anti-sanitar vəziyyət yaradır. Bu məsələ diqqətə alınsa mənə elə gəlir ki, o ərazilərdə yaşayan insanların bu problemlərini həll edə bilərik. Eyni zamanda həmin evlər müasir evlərdir, çirkab və digər su qalıqlarının hamısı çaylara, yaxud da yaşayış məntəqələrinin yaxınlığındakı dərələrə axıdılır. Bunun özü də anti-sanitar vəziyyət yaradır.

Həmçinin ünvanlı dövlət sosial yardım haqqında da fikrimi bildirmək istəyirəm. Düzdür bir neçə iclasda bu məsələ qaldırılıbdır. Bu məsələ dövlətimiz tərəfindən imkansız ailələrə yardım etmək üçün müəyyən edilib və insanlarımız bundan istifadə edirlər, yararlanırlar. Amma burada prosedur qaydaları ilə bağlı demək istəyirəm ki, bəzən yubanmalar baş verir. Dəfələrlə ailə başçısı gəlir deyir ki, “biz filan vaxtdan sənədlərimizi vermişik, amma bu məsələ ilə bağlı bizə hə-yox məsələsi bildirilməyib”. Bir neçə dəfə bu məsələ ilə rastlaşmışam və Dövlət Sosial Müdafiə Fondunun rəhbərliyi ilə əlaqə saxlamışam, “Əmir müəllim, gedib baxacaqlar”, “bu məsələ sistemə işlənəcək”, deyiblər, amma baxırsan ki, aylarla prosedur çəkir. Uzun müddət həmin insanlar get-gələ salınır və onlara düzgün cavab verilmir. Xahiş edirəm ki, aid qurumun rəhbərliyindən tələb edək bu məsələdə operativliyi artırsınlar. İnsanlar çox get-gələ düşməsin. Eləcə də nəqliyyat məsələsi ilə bağlı fikirlər bildirildi, çox çətindir. İnsanlar xərc çəkib rayon mərkəzinə gəlirlər və bu məsələ ilə bağlı öz cavablarını istəyirlər. Xahiş edərdim ki, bu məsələ də diqqətə alınsın.

Çıxışımın sonunda, Anar müəllim sizi, Ali Məclisin bütün üzvlərini, xalqımızı qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əmir müəllim. Qeydlər aparılır və burada səsləndirilən məsələlərin stenoqrama salınması olduqca vacibdir. Bu fikirlər təkcə burada səslənib bu zalda qalmamalıdır, hökumətə ötürülməlidir. Keçən iclasda Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdəfiəsi naziri suallara cavab verərkən geniş məlumat verdi. Belə ki, proqram təminatı yaradılır və proseslər ona inteqrasiya edilir, amma hər halda deputatların da, onlar vasitəsilə gələn belə müraciətlərin də onlara çatdırılması düzgün olar. Çox sağ olun.

Növbəti çıxış üçün söz 28 saylı Naxçıvan şəhər seçki dairəsini təmsil edən Aidə xanım Cəlilzadəyə verilir.

**A.Cəlilzadə,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədr müavini.*

Hörmətli Anar müəllim, hörmətli həmkarlar!

Bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycan məhəlləsi, döngə 5 ünvanında yaşayan seçicilərlə görüş zamanı həll edilməsi zəruri olan bir sıra problemlər aşkarlanmışdır. Lakin bu problemlərdən ən əsası, sakinləri çox narahat edən və normal

gündəlik həyatlarına maneə olan məsələlərdən biri onların yol problemidir. Təbii ki, həmin ünvanda yol var. Amma uzun illər baxımsız vəziyyətdə qaldığı üçün 1 metrdən artıq qalınlıqda qazılsa bəlkə orada asfalt görünər. Sovet dönəmindən çəkilmiş asfaltın üzərinə hər dəfə həmin ərazidə qaz, işıq və yaxud sanitar qovşaq xətləri çəkildikcə asfaltlamaq və standartlaşdırmaq əvəzinə yol daşlarla doldurulmuşdur. Hətta sakinlərin dediyinə görə irihəcmli daşlar da gətirilib tökülmüşdür və onlar sakinlər tərəfindən təmizlənib. Əsas problem isə yolun hündürlüyündən sakinlərin evlərinin çökəkdə qalmasıdır. Yolun hündürlüyü o qədər qalxıb ki, qarajı olan həyətlərə belə sakinlər maşınları daxil edə bilmir və qarda, yağışda, soyuqda onların maşınları çöldə qalır. Bundan daha ağır fəsad verən isə yağan yağış və qar sularının həyətlərdə toplanmasıdır. Çökəkdə qaldığı üçün yağış sularının sanitar qovşağa axımının olmaması səbəbindən evlərin divarları su çəkir, uçmaq təhlükəsi ilə üz-üzədir. Sakinlərin mənzillərinə etdikləri təmirləri də sıradan çıxarır. Müasir dövrümüzdə, XXI əsrdə, uğurları ilə öyündüyümüz ölkəmizin adını daşıyan “Azərbaycan” məhəlləsinin bu şəraitdə olması təbii ki, bizi təəssüfləndirdi. Görünən mənzərə elədir ki, bu gün sakinlərin də sözlərinə istinad edərək deyirik ki, hətta dağ kəndlərində, əlçatmaz ünvanlarda belə yolların quruluşu həmin qeyd etdiyimiz ünvandan daha yaxşı vəziyyətdədir. Çox təəssüf ki, diqqətdən kənarda qalmışdır və onların ciddi narazılıqlarına və etirazlarına səbəb olur.

Həmin ünvanda digər bir məsələ isə yüksəkgərginlikli elektrik xətlərinin birbaşa sakinlərin həyətlərindən keçməsidir. Bilirik ki, bu da insanların həyatı üçün çox böyük təhlükə yaradır. Elektrik şəbəkələri həyət divarlarına bitişik şəkildədir. Nəzərə alsaq ki, ərazidə qoca, məhdud fiziki imkanlı, ən əsası isə uşaqlar yaşayır və onlar üçün açıq bir təhdid halına gəlmişdir. Ola bilər elektrik şəbəkələrinin köçürülməsi xərc və vaxt tələb edən proses olsun. Amma ən azından yüksəkgərginlikli elektrik xətlərinin yeraltı keçirilməsi məsələsinə qısa müddətdə baxıla bilər.

Digər bir məsələ isə həmin yüksəkgərginlikli elektrik xətlərinin keçdiyi dirəklərin sovet dönəmindən qalmasıdır. Hətta şəkillər də çəkib götürmüşəm, onları da sənədin üzərində təqdim edərəm. Hətta sakinlərin dediyinə görə onlara müdaxilə etməyə çalışarkən bir nəfər sakinin elektrik vurması səbəbindən dünyasını dəyişməsi halı da baş verib. Buna görə də çox ciddi diqqətə alınmalı məsələlərdir. Çünki həyati önəm daşıyan məsələlərdir. Digər məsələlərlə yanaşı, həmin ünvanda yüksəkgərginlikli elektrik xətləri, ünvanı ilə desək 13 və 31 nömrəli həyətlərin birbaşa üstündən keçir və dirəklər qeyd olunduğu kimi çürüyüb, aşmaq təhlükəsi ilə üz-üzədir. Bəzən vətəndaşlar həmin dirəkləri ayaqda saxlamaq üçün öz şəxsi imkanları hesabına müdaxilə etməyə çalışırlar. Bu da ciddi həyati təhlükə törədir.

Əlavə olaraq qeyd edəcəyim bir hal da həmin ərazidən 11 nömrəli tam orta məktəbə gedən yolla bağlıdır. Sakinlərin, xüsusilə də həmin ünvanda yaşayan müəllim və şagirdlərin ciddi narazılığına səbəb olur. Əsasən də yağıntılı dövrlərdə onlar məktəbə getmək üçün çox çətinlik çəkirlər. Xahiş olunur ki, həmin məsələlər hökumətə də çatdırılsın və biz də bu məsələləri şəxsi sorğu vasitəsilə çatdıracağıq.

Sonda Anar müəllim, siz başda olmaqla bütün deputat həmkarlarımıza ünvanlanan təbriklərə qoşuluram. Ümid edirəm ki, 2023-cü il - “Heydər Əliyev İli” çərçivəsində bütöv Azərbaycanda olduğu kimi Naxçıvan Muxtar Respublikasında da sərgilənən həmrəylik, birliyimiz daimi olacaq və 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə bütün dünya azərbaycanlılarının timsalında sizi, hər birinizi təbrik edirəm və gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm və ümidvaram ki, bu il məhz elə siyasi-ictimai fəaliyyətimizdə də həmrəy olduğumuz kimi növbəti illərdə də bu həmrəyliyimiz davam edəcək və fevralda qarşıdan gələn seçkilərdə də həmrəyliyimizi, bir daha birliyimizi ortaya qoyaraq cənab Prezidentin seçilməsində əlimizdən gələni edəcəyik, ən əsası isə Elman müəllimin də qeyd etdiyi kimi seçicilərin seçkilərdə aktiv şəkildə iştirak etməsinin təmini sahəsində fəaliyyətimizi davam etdirəcəyik. Bu sahədə hər birinizə uğurlar arzu edirəm, yeni ilin hər birimizə yeni uğurlar gətirməsini diləyirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Aidə xanım. Sizdən və digər deputatlardan da bu tip məsələlərin sorğu vasitəsilə müvafiq orqanlara göndərilməsini xahiş edirəm. Çünki onların cavablarının da alınması yaxşı olardı.

Növbəti çıxış üçün söz 3 saylı Maxta seçki dairəsini təmsil edən Nüsrət müəllim Həsənova verilir. Buyurun.

**N.Həsənov.** Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Sizi salamlayıram və 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Ali Məclisin üzvlərini və əməkdaşlarını, Azərbaycan xalqını və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları səmimi-qəlbdən təbrik edirəm və növbəti ildə onlara yeni-yeni uğurlar diləyirəm.

İstərdim ki, sığorta haqqında qısaca bəzi məlumatları vətəndaşlarımızın və deputatlarımızın diqqətinə təqdim edim.

Hazırda dünyada 3 səhiyyə sistemi vardır:

-Dövlət səhiyyə sistemi;

-Sığorta səhiyyəsi;

-Aralıq səhiyyə sistemi.

Bu üç sistemin hər biri bir modeldir. Aralıq səhiyyə sistemi modeli bu səhiyyə modelləri arasında orta yer tutan bir modeldir. Həm dövlət büdcəsi vəsaitləri, həm tibbi sığorta, həm də xəstələrin bilavasitə ödədiyi tibbi xidmətlər arasındakı müxtəlif nisbətlərlə müəyyənləşir. Bu model əsasən postsovet ölkələrində geniş yayılmışdır.

Ölkəmizdə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu Ümumilli Lider Heydər Əliyev tərəfindən 28 oktyabr 1999-cu ildə qəbul edilsə də, bu sənədin tətbiq olunması üçün lazımi mexanizmlərin olmaması səbəbindən qanunun icrası 2005-ci ilə qədər saxlanılmışdır. 2006-cı ildən isə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi üçün müəyyən işlər görülmüş və dövlət büdcəsindən vəsait ayrılmışdır. 2008-ci ildə isə bir neçə rayonda pilot layihə kimi icbari tıibbi sığortanın tətbiqinə başlanılmışdır. Hazırda icbari tibbi sığorta respublikamızın hər bir bölgəsində tətbiq olunur. Cənab Prezident İlham Əliyev tərəfindən 2014-cü il 4 aprel tarixində “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmiş, və edilmiş dəyişikliklərin hər biri vətəndaş üçün zəruridir.

Bildiyiniz kimi sağlamlıq ümumbəşəri əhəmiyyət kəsb edir və insanların sağlamlığı daim dövlətin diqqət mərkəzindədir. İcbarı tibbi sığortaya daxil olan xidmətlər zərfini dövlət müəyyən edir. Tibb müəssisələrinə müraciət edən vətəndaşlar tibbi sığorta kartını təqdim etməklə həmin paketə daxil olun bütün xidmətləri ödənişsiz əldə edir. Mən bununla əlaqədar bir neçə təklif hazırlamışam, istəyirəm ki, o təklifləri diqqətinizə çatdıram:

1. Respublikamızda vətəndaşların ambulator olaraq tibb müəssisələrinə müraciətində sığorta göndərişlərinin tələb olunması aradan qaldırılsa da, hələ də sığorta olunanlar kartlaşdırılmadığından stasionar müalicəyə ehtiyacı olanların stasionarlarda yerləşdirilməsi üçün tibbi sığorta göndərişləri tələb olunur ki, bu da vətəndaşların narazılığına səbəb olur. Təklif edirəm sığorta olunanların kartlaşdırılması və mərkəzləşdirilmiş bir sistemdə birləşdirilməsi məsələsinə baxılsın və tibbi sığorta ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsi işi artırılsın.

2. ÜST-ün məlumatına görə əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün 1 həkim ştatına 3,5 tibb bacısı ştatı düşür. Həkimlərlə bərabər tibb bacıları da insanlara tibbi xidmət göstərirlər. Lakin məndə olan məlumata görə sığorta zərfində nəzərdə tutulmuş tibbi xidmətlərin göstərilməsi üçün tibb bacılarına stimullar ödənilmir. Vətəndaşlara tibbi xidmətin səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması üçün tibb bacılarına stimulların ödənilməsi məqsədəuyğun olardı.

3. Ev şəraitində hər hansı bir səbəbdən tibb müəssisələrinə müraciət etmək imkanı olmayan, hərəkət edə bilməyən, yataq xəstəsi, infeksiyaya yoluxaraq izolyasiya olunmuş xəstələrin evdə müayinəsi üçün "Medisoft" proqramı üzərindən qeydiyyatının aparılmasında problemlərin olduğunu nəzərə alaraq bu tip xəstələrin qeydiyyatını aparmaq üçün "Medisoft" üzərindən problemin aradan qaldırılmasını təklif edirəm. Çünki bunu qeyd etməkdə fikrim ondan ibarətdir ki, "Medisoft" proqramı hazırlanıb, bu proqram vasitəsilə həkimlər evdə hər hansısa bir xəstəyə baxarkən heç yerdə sənədləşdirə, qeydiyyatını apara bilmirlər, bu da hüquqazidd problemlərin ortaya çıxmasına şərait yaradır.

Bununla da fikrimi yekunlaşdırıram, diqqətinizə görə çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Nüsrət müəllim.

İndi isə söz 4 saylı Yengicə seçki dairəsindən deputat seçilən İsmayıl Qəribliyə verilir. Buyurun, İsmayıl müəllim.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli həmkarlar!

Mən də iki məsələyə münasibət bildirmək istəyirəm.

Hörmətli Ülvi müəllim toxundu, mən də hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu il çox məhsuldar fəaliyyət göstərdi, öz fəaliyyətini Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq həyata keçirdi. Həm komitə iclaslarında, həm də Ali Məclisin sessiyalarında qanun layihələri müzakirə edildi və hüquqa uyğun olaraq qanunlar qəbul edildi.

İkinci növbədə isə deputatların fəaliyyətinə toxunmaq istəyirəm. Hesab edirəm ki, deputatların fəaliyyətlərində də canlanma hiss olunur. Mən və digər həmkarlarım Ali Məclisin iclaslarında ümumi məsələlərlə bağlı seçicilərin problemlərini gündəmə gətirdik. Fərdi məsələlərlə bağlı isə müvafiq dövlət orqanlarına sorğu ilə müraciət etmişik. Hiss olunur ki, seçicilərdə də Ali Məclisin fəaliyyətinə etimad artıb. Əvvəllər görüşlərdə adətən təhsil, səhiyyə müəssisələrinin işçiləri iştirak edirdilərsə, indi həqiqətən problemləri olan vətəndaşlar iştirak edirlər. Onu da xüsusilə vurğulamaq istəyirəm ki, biz burada qaldırılan məsələlərin həllinə nail olmalıyıq, bu, sözdə qalmamalıdır ki, seçicilərdə yaranmış inam itməsin. Çalışmalıyıq ki, qaldırılan məsələlər öz həllini tapsın.

Sonda isə qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə hamını təbrik edir, işlərində uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, İsmayıl müəllim.

Sonuncu çıxışa yazılan deputatımız 11 saylı Həmzəli seçki dairəsindən Yeganə xanım Məmmədovadır. Buyurun.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli həmkarlar!

Sizi salamlayıram. Çıxış etməyi düşünmürdüm, sadəcə olaraq son iclasımızdır, istədim ki, mən də fikir bildirim, həmçinin dekabr ayı çox məhsuldar bir ay oldu. Alışmadığımız bir iş qrafiki var idi. Yəqin ki, əlavə qapalı iclasımız olarsa iş qrafiki ilə bağlı fikrim də olacaq. Eləcə də Elman müəllimin çıxışı ilə bağlı, yəni şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı bir məsələyə toxunmaq istəyirəm. Deputatı olduğum 11 saylı Həmzəli seçki dairəsindən şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı məsələlər o qədər problemli deyil. Şəhid xatirələrinə olan bulaqların açılışı, şəhid adlarının əbədiləşdirilməsi qaydasındadır. Sadəcə olaraq Gümüşlü kəndində məni düşündürən bir hal var. Dəfələrlə bunu dedim, hörmətli nazirimiz mənim 7 sualımdan yalnız birini cavablandırdı. Belə ki, həmin kənddə şəhid adı olub, sonra ləğv olunub. Bu, o qədər çətin məsələ deyil. Nazirlər Kabinetinin hər hansı bir qərarı ilə həmin ad bərpa oluna bilər. 1992-ci ildən bəri şəhidin adı verilir və 2019-cu ildə baxırsan artıq yoxdur. Bu yeni bir iş deyil ki, bura hər hansı bir vəsait tələb olunsun. Sadəcə olaraq bərpa

məsələsidir. Bu da ailəni çox narahat edir. Mən deyərdim, ailədən də çox həmin məktəb kollektivinin bir qürur məsələsinə çevrilib ki, şəhidimizin adı niyə götürülübdür.

İkinci bir məsələ isə, bəlkə də o müəssisənin rəhbəri olduğum üçün bir az çəkindim deməyə, amma qeyd etməliyəm. Belə ki, mən Aşağı Yaycı kənd tam orta məktəbinin direktoruyam, 2008-ci ildən həmin məktəb istifadəyə verilibdir, yanvar ayından məktəbin həyətinin işıqlandırılması yoxdur. Dəfələrlə müraciət etmişik, əmr kitabında da var, rəsmi məlumat da vermişik. “Artay” şirkəti gərək ki, o məktəbin tikintisini həyata keçirib, özüm şəxsən müraciət etdim həmin tikinti şirkətinə, gəldilər yeraltı qazıntı apardılar və həmin xətti tapdılar. Nə hikmətdirsə tapılsa da belə, o problemi həll etmək əvəzinə, məktəbin pəncərəsindən keçməklə kabellə içəridə bir elektrik xəttinə qoşdular. Təbii ki, bu da həm görünüşü pozur, həm də nəzərə alsaq ki, orada məktəblilər var, hər an təhlükədir. Ona görə ona icazə vermədim, ləğv etdik. Bu gün də həmin binanın işıqlanması yoxdur. Qeyd edim ki, seçkilərlə bağlı məktəb həm də məntəqədir və hər dəfə gəlib maraqlanırlar ki, işıqlandırılması necədir. Məktəbimizin təmirə böyük ehtiyacı var. Yeni sanitar qovşaq çöldədir və su sistemi yoxdur. Su sistemi olmadığına görə də həftədə bir dəfə kəndin ərazisində olan arteziandan iki nəfər növbəli orada dayanır ki, bizə birgünlük su versinlər, sanitar qovşaq təmizlənsin yaxud da, mərkəzi istilik sistemi ilə bağlı ora su vurulsun. Məktəbin daxilində bufet yoxdur. Bunu təbii qəbul edirəm, çünki, həmin dövrdə tikilən binaların əksəriyyətində bu yoxdur. Böyük məktəbdir, yol kənarında da mağaza yerləşir. Uşaqların mağazaya getməsinin qarşısını almaq çox çətindir. Çünki, təbii ki, onlar nələrsə almalıdırlar. Məktəb ikimərtəbəlidir, təmirə çox böyük ehtiyacı var. Binada çatlar var. Bir dəfə də bu məsələni qaldırmışdım. Xahiş edirəm ki, növbəti təmir planında nəzərə alınsın. Hətta belə bir məlumat verilmişdi ki, məktəb təmirə gedəcək, sonradan bu məsələ qaldı.

Bir də hörmətli Baş nazirə kəndlərdə olan suvarma su sistemi ilə bağlı sual vermişdim. Səbuhi müəllim sadəcə Axura və Həmzəli kəndlərinin adını çəkməklə qısa zamanda oranın suvarma su sisteminin qaydaya salınacağını dedi. Lakin deputat həmkarlarımızdan hansısa qeyd etdi, artıq sosial şəbəkələrdə də izləyicilərimiz çoxdur, baxırlar, məlumatlanırlar. Sessiyada bizim kəndin adı niyə çəkilməyib? Dediyim kimi, o 9 kənddən ikisinin adı çəkildi. Amma hamısının suya ehtiyacı var. Sizin də çox vaxtınızı almıram ki, su məsələsi qlobal məsələdir, baxılacaq.

Yekunda mən də həmkarlarıma qoşuluram, həmçinin bilirsiniz ki, 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Artıq nəyi nə zaman edəcəyini mükəmməl bilən, sözü imzası qədər qüdrətli olan qalib Prezidentimiz növbəti ilin belə artıq planını hazırlayıbdır. “Yaşıl dünya naminə həmrəylik ili”, COP29-un Azərbaycanda keçirilməsi və onun təşkilatlanması böyük bir məsələdir. Eyni zamanda 2024-cü ildə Prezident seçkilərinin keçirilməsini də qeyd etmək istəyirəm ki, həm də hüquqi bazası var. Fevral ayının 7-də mən də bütün deputat həmkarlarımın fikirlərinə qoşuluram, biz seçkilərdə mütləq şəkildə mükəmməl iştirak etməliyik, çünki 2023-cü il ərzində hər şey plan üzrə gedib və bu plan üzrə də davam etməlidir.

Qarşıdan yeni il gəlir və bu gün sonuncu sessiyadır. Deputat yoldaşlarıma təşəkkür edirəm, çünki artıq fikirlərimizi sərbəst şəkildə sizə çatdıra bilirik. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə şəxsim adından, deputatı olduğum ərazilərdə yaşayan insanlar adından hər birinizə möhkəm can sağlığı, gələcək işlərinizdə uğurlar arzulayıram və yeni il münasibətilə xalqımızı ürəkdən təbrik edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım.

Hörmətli həmkarlar, bu gün biz həm payız sessiyasını, həm də 2023-cü ili yekunlaşdırdıq. Burada qeyd olunduğu kimi, mən də hesab edirəm ki, Ali Məclisin il ərzindəki işi səmərəli təşkil olundu. Ali Məclisin funksionallığının artırılması üçün bir neçə növbədənkənar sessiya keçirilmişdir, deputatların işinin yenidən təşkil olunması və bir sıra digər istiqamətlərdə Ali Məclis fəal çalışmışdır.

Hesab edirəm ki, ictimaiyyət də bunu görür. Amma birlikdə qarşıdakı ildə təbii ki, Ali Məclisi daha da funksionallaşdırmağa çalışmalıyıq. Bu sahədə hər birinizə uğurlar arzulayıram.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 1.5-ci maddəsinə əsasən payız sessiyası dekabrın 30-dək davam edir. Bizim müzakirə edəcəyimiz məsələlər bitdiyi üçün artıq bu gün sonuncu iclasımızı keçiririk. Daxili Nizamnamənin 1.4-cü maddəsinə əsasən yanvarın 1-dən-15-dək deputatlar tətilə buraxılırlar və tətil dövrü onların məzuniyyət dövrü sayılır. Bu, keçən dəfə də burada səsləndi. Deputatlar yanvarın 1-dən 15-ə kimi məzuniyyətdə sayılacaqlar, sərbəstdirlər.

Hörmətli deputatlar!

Təbii ki, yanvar ayının 15-dən komitələr, fevral ayının 1-dən isə yaz sessiyası öz işinə başlayacaq.

Hörmətli həmkarlar!

Sizi və muxtar respublikanın sakinlərini qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etmək istəyirəm. Hər birinizə can sağlığı, işlərinizdə və şəxsi həyatınızda uğurlar arzu edirəm.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*